*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 480-488*

https://doi.org/10.62837/2025.3.480

**NURAN RƏHMANZADƏ**
Bakı Avrasiya Universiteti magistrant,
mailto:nuranrahman9@gmail.com

# ZAMANLARARASI YARADICI TƏFƏKKÜR: İHSAN OKTAY ANAR VƏ ƏDƏBIYYATIN SƏRHƏDLƏRI

**Xülasə**

Bu məqalədə, türk ədəbiyyatının dəyərli postmodern yazarlarından biri olan İhsan Oktay Anarın həyatı və yaradıcılığı araşdırılmış, onun yaradıcılığının ideya özəllikləri tədqiqat obyektinə çevrilmişdir. Əsas diqqət onun əsərlərindəki yaradıcı təfəkkürün zamanlararası quruluşuna və ədəbiyyatın ənənəvi sərhədlərini aşan üslubuna yönəldilmişdir. İhsan Oktay Anar öz dövrünün yazı ənənələrini və sərhədlərini aşmağa çalışmış, əlində olanlar ilə heç bir zaman yetinməmişdir. O, postmodernizmi əsərlərinə gətirsədə, öz yazı üslubu ilə ənənələri də müasirləşdirməyi, özününküləşdirməyi bacarmışdır. Müəllifin mətnlərində tarix, mifologiya, fəlsəfə və fantastika kimi müxtəlif sahələrin sintezinə yer verilməsi, onun postmodern ədəbiyyatın orijinal təmsilçilərindən biri olduğunu göstərir. Həmçinin öz dövrünün ən dəyərli yazıçısı olaraq ədəbiyatda öz izini qoymuşdur. Məqalədə, İhsan Oktay Anarın bədii-estetik qaynaqları**,** janrlararası keçidlər**,** dil və üslub xüsusiyyətləri kontekstində təhlillər edilmişdir. Nəticə olaraq, müəllifin əsərlərində zaman və janr anlayışlarına verdiyi yaradıcı yanaşma ətraflı şəkildə təhlil edilmiş, bu yanaşmanın onun bədii-estetik dünyagörüşünə və postmodern ədəbiyyat çərçivəsində formalaşan fərdi üslubuna təsiri dəyərləndirilmişdir.

**Açar sözlər:** İhsan Oktay Anar, dil və üslub, postmodernizm, ədəbiyyatın sərhədləri, janrlararası keçid.

**NURAN RAHMANZADA**

## CREATIVE THINKING ACROSS TIME: İHSAN OKTAY ANAR AND THE LIMITS OF LITERATURE

**SUMMARY**

This article examines the life and works of İhsan Oktay Anar, a distinguished postmodern writer in Turkish literature, as well as the ideological characteristics of his works. His works emphasize the intertemporal structure of creative thinking and the literary style that transcends the traditional boundaries of literature. İhsan Oktay Anar has sought to surpass the writing traditions and limitations of his time, never being satisfied with what is at hand. While incorporating postmodernism into his works, he has also managed to modernize and embrace traditions through his writing style. The synthesis of different fields such as history, mythology, philosophy, and fiction in the author's texts demonstrates his status as an authentic representative of

postmodern literature. As one of the esteemed writers of his time, he has also made his mark on literature. The article examines İhsan Oktay Anar's artistic and aesthetic sources, genre transitions, and language and style characteristics. Ultimately, the creative approach to the concepts of time and genre in the author's works is extensively analyzed, and the influence of this approach on the author's artistic-aesthetic worldview and individual style within the framework of postmodern literature is evaluated. Keywords: İhsan Oktay Anar, language and style, postmodernism, boundaries of literature, genre transitions.

**İhsan Oktay Anarın yaradıcılığının bədii-estetik qaynaqları**

"Dumanlı Qitələr atlası" və bir çox qeyri-adi romanın müəllifi olan İhsan Oktay Anar, 1960-da Türkiyənin Yozqat şəhərində dünyaya göz açmışdır. Anar atasının peşəsinə görə ibtidai və orta məktəbi İstanbulda oxuyub lakin o, orta məktəbdə oxuyarkən İzmirə köçüblər. Anar İzmirdəki "Karşıyaka Oğlanlar Liseyində" oxumağa başlamışdır, lakin davamlı olaraq dərsdən yayındığı, kitabxanaya getdiyi və orada kitab oxuduğu üçün məktəbdən qovulub. Məktəbdən qovulması xəbərini alandan sonra axşam məktəbinə keçib, orta məktəbi də bu yolla başa vurub. Orta məktəbi bitirdikdən sonra Ege Universitetinin fəlsəfə fakültəsinə daxil olub, bakalavr təhsilindən sonra isə həmin universitetdə magistratura pilləsini bitirib. 1995-ci ildə "Şimali İraq Hərəkatı" da hərbi xidmətini başa vurmuşdur.Magistratura və hərbi xidmətini başa vurduqdan sonra Ege Universitetinin fəlsəfə bölməsinə elmi işçi vəzifəsinə təyin olunmuş və 2011-ci ildə təqaüdə çıxmışdır. 1995-ci ildə Cənub-Şərqdə hərbi xidmətinin təsirindən çıxa bilmədiyini deyən İhsan Oktay Anar hərbi xidmətdən sonra Ege Universitetində doktoranturaya başlamış və 1994-cü ildə "Qədim Yunan Fəlsəfəsində Zaman Anlayışı" adlı dissertasiya işi ilə bitirmişdir. 1999-cu ildə Özlem Xanımla ailə quran yazıçı "Amatı" həyat yoldaşına həsr edib. Özlem Anarın 2016-cı ildə nəşr olunan "İtirilmiş Ruhlar Kitabı" kitabının üz qabığını İhsan Oktay Anar çəkmişdir. [10]

İhsan Oktay Anar nəinki yazar, həmçinin illustrator, tərcüməçi də olmuşdur. O sənət ilə çox yaxından maraqlanırdı. Hətta az bilinən faktlardan biridə bu idi ki, Anar bir neçə kitabının üz qabığını şəxsən özü çəkmiş, ərsəyə gətirmişdir. Anarın yazarlığının indiki zamanda və öz zamanında bu qədər sevilməsinin səbəbi elə məhz incəsənəti, tarixi, ədəbiyyatı bir araya gətirərək postmodern bir dünya yaratmağı bacarmışdır.

İhsan Oktay Anarın ilk nəşr olunan hekayəsi "Kafirlər üçün Apology" 1985-ci ildə Morköpük jurnalında, sonrakı bir neçə hekayəsi isə eyni jurnalda və Kitabda dərc olunmuşdur. Onun ilk nəşr olunmuş romanı olan "Dumanlı Qitələr Atlası" (1995) iyirmidən çox dilə tərcümə edilmişdir. Romanı kino sahəsinə cəlb olunma cəhdi olub, lakin müəllif icazə verməyib. Əsər 2015-ci ildə İlban Ertemin rəsmləri ilə

komiks (çizgi roman) şəklində nəşr olunmuşdur. Anarın "Puslu Kitablar Atlası"ndan əvvəl yazdığı, lakin hələ çap olunmadığı "Tamu" adlı başqa bir romanı da var.

İhsan Oktay Anar bir müddət "Yeni Bina" qəzetində köşə yazarı kimi çalışıb. Öküz, Heyvan və s. jurnallarda da məqalələr dərc etdirən İhsan Oktay Anar 2013-cü ildən "Ot" jurnalında yazır. Uzun illər Ege Universitetində dosent vəzifəsində çalışan İhsan Oktay Anar 2011-ci ildə təqaüdə çıxıb. Hazırda isə İzmirdə yaşayır. O, əvvəllər "Yeni Binyıl" qəzetində və bəzi dərgilərdə köşə yazılığı edib, ancaq son illərdə daha çox səssiz bir həyat tərzi sürür. Bir neçə müsahibəsində artıq roman yazmayacağını, ədəbiyyatdan "təqaüdə çıxdığını" deyib.

**Zamanlar arasında sərbəst şəkildə hərəkət edən bir bədii düşüncə.**

İhsan Oktay Anarın əsərlərində zaman anlayışı demək olar ki yoxa çıxır, oxucu əsəri oxuyan zaman zamanın sərhədləri arasında itib batır. Onun romanlarında zaman önəmli bir məhfum kimi deyildə, daha sadə formada bizə təqdim olunur. Anar postmodernizmin ən mükəmməl yazrlarından biridir. O, postmodrnizmi Türkiyə ədəbiyyatına gətirərək ənənənin sərhədlərini necə aşmaq lazm olduğunu da onlara göstərmişdir. Zaman anlayışı, postmodernizmdə özünü daha çox göstərən bir anlayışdı. Postmodernizm ümumiyyətlə nədir? Zaman burada hansı formada təzahür edir?

Postmodernizm sadəcə bir ədəbi cərəyan yox, həm də mədəniyyətə, sənətə, fəlsəfəyə və memarlığa təsir etmiş böyük bir düşüncə tərzidir. Postmodernizm — "modernizmdən sonra gələn" dövr deməkdir. XX əsrin ortalarından sonra (əsasən İkinci Dünya Müharibəsindən sonra) meydana çıxıb. Bu cərəyan dünyaya daha şübhə ilə yanaşır, qəti həqiqətlərin olmadığını düşünür və oyunbaz, ironiya ilə dolu bir yanaşmanı önə çıxarır. Daha elmi dildə isə belə istinad vermək olar: "Postmodernizm dövrünün dərk edilməsi müasirlik anlayışının şübhə altına alınmasını və müasirliyə inamın itirilməsini, plüralizm ruhunun mövcudluğunu, ənənəvi təəssübkeşliyə skeptisizmin artması və nəhayət, dünyanı universal bir bütöv kimi qəbul edən, suallara qəti həll və dolğun cavablar gözləyən perspektivin rədd edilməsini nəzərdə tutur. Postmodernizmi açmağı bacarmaq üçün biz mənanın aydınlığına yox, məna zənginliyinə baxmalıyıq; ağ-qara fərqindən qaçaraq, "ya biri, ya digəri" əvəzinə "həm birini, həm də digərini" qəbul etmək; Bir neçə məna səviyyəsinin və bir neçə mərkəz nöqtəsinin birləşməsini aşkar etmək lazımdır" (7, s. 4)

Postmodernizm XX əsrin ikinci yarısından etibarən ortaya çıxmış, qəti həqiqətlərin olmadığını irəli sürən və mətni çoxqatlı, açıq şərhlərə açıq hala gətirən bir yanaşmadır. İhsan Oktay Anarın əsərləri də məhz bu çoxqatlılıq və ironiya xüsusiyyətləri ilə seçilir. Yazıçının əsərlərində tez-tez tarixi hadisələr və obrazlar fantastik elementlərlə birləşdirilir. Məsələn, onun ən məşhur əsərlərindən biri olan "Dumanlı Qitələr Atlası" nda Osmanlı dövrü İstanbulunda baş verən hadisələr həm real, həm də uydurma elementlərlə təqdim olunur. Bu cür yazı tərzi postmodernizmin "reallığın dekonstruksiyası" (yenidən qurulması və sorğulanması) prinsipi ilə üst-üstə

düşür. Digər bir postmodern cəhət onun əsərlərindəki intertekstualıq, yəni mətn içində mətn, başqa mətnlərə eyhamlar və göndərişlərdir: "Romanlarındakı qeyri-müəyyən zaman və məkan, dildən istifadə tərzində radikal seçimlər, yeni tarixçiliyə yanaşan tarixi şərh etmə tərzi, onu türk romanlarında postmodernizmin ən önəmli nümayəndələrindən birinə çevirir." ( 6, s.3)

İhsan Oktay Anar həm İslam fəlsəfəsinə, həm qərb ədəbiyyatına, həm də xalq nağıllarına istinad edir. Oxucu isə bu mətnlər arasında bir səyahətə çıxarılır və bəzən öz "doğru"sunu özü tapmalı olur. Müəllifin səsi ilə obrazların səsi iç-içə keçir, müəllif mətnin içində görünür, amma eyni zamanda gizlənir — bu da postmodernizmin əsas özəlliklərindəndir. Eyni zamanda, Anarın dil oyunu, ironik yanaşmaları, mif və metafizikaya olan marağı onun mətnlərini yalnız ədəbi deyil, həm də fəlsəfi cəhətdən zənginləşdirir. Onun dünyası həm qədim, həm müasir, həm real, həm də xəyali olmaqla oxucuya fərqli zaman və məkan təcrübəsi yaşadır. Həmçinin yazarın dili də qeyri-adi və alışdığımız tərzdən tamamilə fərqlidir: "Kadirqa gəmiqayırma estakadasına yaxınlaşarkən onun onurğası dibinə dəydi. Əjdaha başlı kolomborne topundan atılan top gülləsi ilə sancaq tərəfdəki dəlikdən axan su qayığı ağırlaşdırıb su xəttini qaldırmışdı. Lakin onun ağırlığını artıran ikinci səbəb, ya nizədən, ya da arquebus lüləsindən atılan və demək olar ki, böyrünün hər tərəfinə dəyən çoxsaylı güllələr idi. Gəmidə çətinliklə söndürüldüyü görünən bir neçə yanğının da izləri var idi" (4, s.15).

İhsan Oktay Anar çağdaş türk postmodernizminin ən parlaq nümayən-dələrindən biridir. Onun ədəbiyyata gətirdiyi yeniliklər və janrlararası keçidlər postmodern ədəbiyyatın ruhunu əks etdirir və bu cəhətdən onun əsərləri müasir ədəbiyyat üçün dəyərli bir örnəkdir. Əsərlərində əski türk dilindən çox tez-tez istifadə edərək onun işləkliyini qorumağa çalışmışdır: "Kainatın yaradılışından 7079 il sonra, İsa peyğəmbərdən 1681 il sonra, hicrətdən 1092 il sonra isə Konstantinopol adlı məşhur bir şəhər olduğunu alimlər, cahillər, şərəf əhli, əlamət əhli və sodomilər nəql etmiş, elan etmiş, söyləmiş və bildirmişlər" ( Qeyd: orginal dildə- "Ulema, cuhela ve ehli dübara, ehli namus, ehli işaret ve erbab-i livata rivayet ve ilan, hikayet ve beyan etmişlerdir ki, kun-ı Kainattan 7079 yıl, İsa Mesihden 1681 ve Hicretten dahi 1092 yıl sonra, adına Konstantiniye derler trrakası meşhur bir kent vardı".) (4 s.13).

Əski türk dili Anarın yaşadığı zamanda artıq öz işləkliyini itirsə də, o çalışmışdır ki bu dilə yenidən canlılıq gətirsin: "Anarın işlətdiyi bəzi söz və məfhumlar köhnə dildə nümunələr olsa da, indiki bədii-ədəbi dildə artıq yoxdur. Lakin qədim dildə belə olmayan bəzi sözlərin müəllif tərəfindən yumoristik məqsədlər üçün istifadə edildiyi görünür. Üstünlük verilən köhnə anlayışların əksəriyyətinin terminlər və ya texniki sözlər olması da diqqət çəkir." (1, s.5)

İhsan Oktay Anar yazdığı əsərlərin demək olar ki çoxunun mövzularını tarixdən götürmüşdür. O, öz zamanı və keçmiş zaman arasında get-gəl edərək

oxucunu labirint içərisinə daxil edir və oxucu kodları açaraq o dünyadan çıxmağa çalışır yaxud da həmin labirintə itib-batır. Oxucu Anarın əsərlərini oxuyanda tamam fərqli dünyaya daxil olur. Həmçinin, Anarın əsərləri fəlsəfi, psxoloji baxımdan da şərh edilir : "Mövzuları ümumiyyətlə tarixdən götürülən Anar Dekartın "Metod Üzərindən Söhbət" əsərindən ilhamlanaraq "Dumanlı qitələr atlası"nda insanın ekzistensial problemlərinə ironik yanaşır, "Kitab-ül Hiyel" isə hakimiyyət dalınca düşənlərin faciəvi və komik vəziyyətlərindən bəhs edir. O, "Efresyab hekayələri"ndə insan həyatını gözəlləşdirməyi qarşısına məqsəd qoyub və bu kontekstdə sevgi və tolerantlığı önə çəkir. "Amat" və "Suskunlar"da o, oxşar problemə, bəşəriyyətin var olandan bəri yaratdığı xeyirlə şərin əbədi qarşıdurmasına toxunur. Müəllif "Yeddinci gün" əsərində insanın əbədiyyətə qovuşmaq xəyallarının ironiyasına və mərhum Osmanlı ziyalılarının faciəvi vəziyyətinə diqqət çəkir, "Qaliz Kahraman"da isə Kasımpaşalı İdris Əmil Əfəndinin həyat hekayəsinə diqqət çəkir" (9, s.6)

Anar yaradıcılığında ümumilikdə diqqət çəkən əsas mövzulardan biri daha gözəl, ədalətli və yaşamağa dəyər bir dünyanın formalaşdırılması arzusu ilə bağlıdır: "Görürük ki, Anarın bütün romanlarında ümumiyyətlə qarşılaşdığımız əsas mesaj daha yaşana bilən, gözəl bir dünya yaratmaq cəhdidir" (s.6) (y.a) Onun romanlarında bəşəri dəyərlərin qorunması, insan ruhunun təmizliyi və ədalətə olan ehtiyac daim ön plandadır. Müəllifin qəhrəmanları çox zaman bu idealist dünyanı axtarır, onun uğrunda mübarizə aparır, lakin bu mübarizənin qarşısında müxtəlif maneələrlə – xüsusilə də mənəviyyatsızlığın, ehtirasın, maddiyyatçılığın və hakimiyyət hərisliyinin təcəssümü olan mənfi obrazlarla qarşılaşırlar. Anar bu obrazlar vasitəsilə insan cəmiyyətindəki ziddiyyətləri göstərir, yəni bir tərəfdə yaxşılıq, dürüstlük və insani dəyərlər dayanırsa, digər tərəfdə bunlara zidd olan, ancaq güc və nəzarət arzusuna aludə olmuş qaranlıq fiqurlar yer alır: "Anarın romanlarında hadisələrin dərin strukturunda Allahla Şeytan, xeyirlə şərin əbədi mübarizəsi var. Bu mübarizə dini-mistik elementlərlə, ənənəvi mədəniyyətin daşıyıcıları olan linqvistik formalarla, bir-biri ilə əlaqəli zəngin hekayələr və ilahi dinlərin təlimlərinə mətnlərarası istinadlarla mənalı bir bütövlük təşkil edir" (3, s. 94-95)

Anarın romanlarında ideal dünyanın yaradılması sadəcə bir utopik təsəvvür deyil, əksinə, insanın öz iç dünyasında bu idealları yaşatması və qoruması kimi təqdim olunur. Onun fikrincə, dünyanı gözəlləşdirmək üçün öncə insanın daxilindəki ehtirasları, mənfi impulsları ram etməsi, öz vicdanı ilə üz-üzə gələ bilməsi vacibdir. Müəllif əsərlərində bu prosesi həm psixoloji, həm də fəlsəfi müstəvidə işləyir, qəhrəmanlarının daxili dünyasını analiz edərək oxucuya onların mənəvi dilemmasını göstərir. Anar həm də bu əsərlərində zaman-zaman ironiyadan və sarkazmdan istifadə edərək, mənfi obrazların davranışlarını ifşa edir. Onun qələmi ilə yaradılan bu mənfi personajlar adətən böyük iddialar, sonsuz güc və hakimiyyət arzusu ilə yaşayırlar. Lakin müəllif onların bu cəhdlərini mənasız və gülünc bir vəziyyət kimi təqdim edir. Çünki əbədi güc axtarışı və aləm üzərində hökmranlıq iddiası, əslində

insanın nə qədər aciz və nə qədər aldadıcı xəyallara qapıldığını göstərir. Anar bu obrazları vasitəsilə cəmiyyətin və fərdin yanlış istiqamətdə inkişaf etdiyini, bəşəriyyətin həqiqi dəyərlərdən uzaqlaşdığını vurğulayır. Bütün bunlarla yanaşı, müəllif oxucunu düşünməyə vadar edir: Əgər bu dünya yaşamaq üçün yersə, onu gözəlləşdirmək yalnız dövlətlərin və sistemlərin işi deyil, hər bir fərdin vicdanı və əməlləri ilə bağlıdır. Anarın bu çağırışı onun bədii dili, obrazlı ifadələri və dərin fəlsəfi çalarları ilə oxucuya çatdırılır. Beləliklə, Anar ədəbiyyatı yalnız bədii bir vasitə kimi deyil, həm də mənəvi tərbiyə, ictimai və etik düşüncəni formalaşdıran bir güc kimi təqdim edir.

**Ədəbiyyatın və İhsan Oktay Anarın ədəbi əsərlərinin sərhədləri.**

Ədəbiyyat çox geniş bir sahədir. Ədəbiyyat bəşəriyyətin var olduğu gündən onunla birgə inkişaf edən, zamanla yenilənən, dəyişən və yenidən qurulan canlı bir sənət sahəsidir. "Ədəbiyyatın sərhədləri" ifadəsi isə bu sahənin nə qədər geniş, eyni zamanda zaman-zaman məhdudlaşdırıla bilən tərəflərini ifadə edir: "İnsan ilk danışmağa başladığı ilk zahiri sıçrayışdan, ilk növbədə dərdini söyləməyə meyilləndiyi, yaşadığı hadisələrlə zehnin uydurmalarını sintez etməyə çalışdığı zamandan bəri keçmişdən bu günə qədər ədəbiyyat həmişə həyatın hər cür təzahürlərini, hər cür obraz və görünüşləri özündə ehtiva etmişdir. Ədəbiyyat həyatdan bəzi şeyləri seçib bəzi şeyləri kənarda qoymamaq, götürdüklərini müəyyən faktura çevirmək prinsipini və vəzifəsini qəbul edib və bu ikisi arasında ciddi, sərt və aydın fərq var. Ədəbiyyata müəyyən hədd qoymağa, sərhədə salmağa çalışanlar, ədəbiyyata qəlib vuranlar, kənardan ədəbiyyata missiya yükləyənlər, bu fərqi anlamayanlar, anlamaqda çətinlik çəkənlər, anlamaq istəməyənlər olub. Ədəbiyyat təkcə çılpaq həqiqəti götürüb yeni reallığa çevirmir, o, özünü təkcə əqli transformasiya və emosional yenidən yaratma vasitəsi kimi təqdim etmir; duyğu, düşüncə, təxəyyül, reallıq... bunların hamısını ən gözəl şəkildə və ən yüksək səviyyədə götürüb birləşdirib sintez edib yenidən qurmaq ədəbiyyatın yeganə işi deyil; Sıfır nöqtədən başlayaraq, qarşılaşdığı hər şeyi çoxaltmaq vəzifəsini öz üzərinə götürür.". [11]

Əslində ədəbiyyat, yaradıcı düşüncənin sərhəd tanımadığı bir sahə olsa da, bir çox hallarda bu sərhədlər cəmiyyətin, dövrün ideoloji, siyasi və ya mənəvi tələbləri ilə müəyyən olunur. Ədəbiyyatın mövzu sərhədləri daim dəyişir. Klassik dövrlərdə əsasən qəhrəmanlıq, sevgi, faciə kimi mövzular üstünlük təşkil edirdisə, müasir dövrdə insanın daxili aləmi, psixoloji ziddiyyətlər, texnoloji inkişaf, süni zəka, ekoloji problemlər, hətta cinsiyyət və kimlik məsələləri də ədəbiyyatın maraq dairəsinə daxil olub. Bu isə göstərir ki, ədəbiyyat heç zaman sabit mövzu çərçivəsində qalmaq məcburiyyətində deyil. Əksinə, o, yaşadığımız dövrün ritminə uyğun olaraq öz sərhədlərini genişləndirir və yenilənir. Ancaq ənənəni də inkar etmir: "Müəllif mətnin real görünməsi üçün müxtəlif yollara çalışır. Bəzən hadisələri

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 480-488*

xroniki üslubda və dövrün elmi anlayışına uyğun olaraq müxtəlif mənbələrdən, rəvayətçilərdən istifadə edərək nəql edir. Beləliklə, o, povestinin reallığını gücləndirməyə çalışır" (8, s.6)

Forma baxımından da ədəbiyyatın sərhədləri daim sınanır. Əvvəllər yalnız nəsr, nəzm və dram kimi ənənəvi janrlarla ifadə olunan ədəbi fikirlər, bu gün postmodern yanaşmalar, eksperimental mətnlər, vizual poeziya və hətta sosial mediada yayılan mikrohekayələrlə yeni ifadə formaları qazanır. Müəllif artıq sadəcə yazıçı deyil – o, bəzən həm sənətkar, həm filosof, həm də texnoloji vasitələrlə danışan bir eksperimentçiyə çevrilir: "Anarın romanlarında ənənəvi janrları birləşdirən cəhətlər çoxdur. Şifahi mədəniyyət dairəsindən gələn bu xüsusiyyətlər yazıçının dilində də bu janrlara xas bəzi əlamətləri üzə çıxarmışdır"(2, s.3)

Lakin bəzən ədəbiyyatın sərhədləri süni şəkildə müəyyən edilir- senzura, siyasi basqılar, dini və mədəni tabu anlayışları yaradıcı azadlığı məhdudlaşdıra bilər. Belə hallarda ədəbiyyatın sərhədi sadəcə sənətin öz dinamikası ilə yox, həm də xarici təzyiqlərlə müəyyən olunur. Buna baxmayaraq, tarixin göstərdiyi kimi, yazıçılar həmişə bu sərhədləri aşmağa cəhd ediblər. Çünki ədəbiyyat yalnız bir hekayə danışmaq vasitəsi deyil, həm də azad düşüncənin, vicdanın və insanlıq təcrübəsinin daşıyıcısıdır. Ədəbiyyatın sərhədləri anlayışı həm onun sonsuz genişliyini, həm də zaman-zaman qarşılaşdığı məhdudiyyətləri ifadə edir. Ən əsas məsələ isə budur: Ədəbiyyat canlıdır, daim hərəkətdədir, dəyişkəndir, zamanın tələbinə uyğundur və hər bir yazıçı onun sərhədlərini bir qədər də irəli aparmaq gücünə malikdir.

Türk ədəbiyyatının postmodern ruhunu özündə daşıyan və orijinal yazı üslubu ilə seçilən İhsan Oktay Anar, ədəbiyyatın sərhədlərini məzmun, forma və zaman anlayışları baxımından genişləndirir. Onun əsərlərində tarix, fəlsəfə, mifologiya, elmi fantastika və gündəlik həyat bir araya gətirilərək, oxucuya həm real, həm də qeyri-real elementlərlə zənginləşdirilmiş unikal bir bədii dünya təqdim olunur. Bu da ədəbiyyatın klassik hüdudlarını aşaraq onu yeni forma və məzmun çərçivələrinə çıxarır. İhsan Oktay Anarın əsərlərində ənənəvi roman strukturu tez-tez pozur, qarışdırır və yeni bir ədəbi məkan yaradır. Bu postmodernizmin əsas xüsusiyyətlərindən biri idi; sərhədlərin pozulması, oxucunu oyun içərisinə daxil etmək və kodların tapılması: "Oyunçuluq XX əsrdə inkişaf edən postmodernizmin ədəbiyyata təqdim etdiyi bir anlayışdır. Postmodernizmlə ədəbi əsərlər artıq ənənəvi ədəbiyyatda olduğu kimi oxucuları məlumatlandıran və istiqamətləndirən tərbiyəvi əsərlər deyil. Əvəzində ədəbi əsərin yaranma prosesini nəql edən və oxucuları bu prosesə daxil edən bədii mətnlər ön plana çıxır" ( 5, s. 3)

O, xronoloji ardıcıllığı, klassik qəhrəman anlayışını və sabit süjet xəttini rədd edərək, oxucunu həm məzmun, həm də zaman içində dolaşdıran çoxlaylı bir mətn qurur. Məsələn, "Dumanlı Qitələr Atlası" romanında gerçəklik və fantastika bir araya gəlir; həm Osmanlı dövrünün tarixi atmosferi canlandırılır, həm də bu dövr qeyri-real və simvolik hadisələrlə bəzədilir. Bu isə oxucuya sadəcə tarix oxumaq yox, həm də

fəlsəfi, bədii və simvolik bir səfərə çıxmaq imkanı verir.Ədəbiyyatın sərhədlərini aşmaq, İhsan Oktay Anar üçün həm də janrların qarışdırılması deməkdir. Onun əsərlərində romanla birlikdə əfsanə, nağıl, xalq ədəbiyyatı, elmi araşdırma və ensiklopedik bilgi yanaşı işlənir. Bu isə ədəbiyyatı təkcə estetik zövq vasitəsi deyil, həm də bilik və təxəyyül dünyası kimi təqdim edir. Beləliklə, müəllif oxucu ilə sadəcə bir hekayə paylaşmır, onu düşünməyə, şübhə etməyə və bildiklərini yenidən sorğulamağa təşviq edir. İhsan Oktay Anar həm də dilin sərhədlərini genişləndirir. O, Osmanlı türkcəsindən tutmuş müasir danışıq dilinə, elmi terminologiyadan gündəlik ifadələrə qədər geniş bir leksik sahəyə müraciət edir. Onun dili həm tarixidir, həm çağdaş; həm ciddi, həm də ironikdir. Bu da ədəbiyyatın dil vasitəsilə nə qədər rəngarəng və çoxqatlı ola biləcəyini göstərir.

**Nəticə**

İhsan Oktay Anarın yaradıcılığı ədəbiyyatın sərhədlərini aşıb onu yeni bir məkana – həm idrakın, həm təxəyyülün sərbəst şəkildə hərəkət etdiyi bir sahəyə çevirir. Onun əsərləri yalnız oxunmaq üçün deyil, kəşf edilmək, düşünülmək və hiss edilmək üçündür. Bu cəhətlərinə görə İhsan Oktay Anar müasir türk ədəbiyyatında sərhəd tanımayan bir yazıçı kimi seçilir. O, əsərlərinə hər hansısa bir sərhəd qoymur, çox şaxəli mövzulara toxunur, demək olar ki hər kütləyə xidmət edir. O romanları vasitəsilə oxucunu yaşadığı həyatın mənfi aurasınan ayıraraq, yazarın təxəyyülünün geniş, utopik dünyasına daxil edir. Anarın romanları, yalnız ədəbi zövq aşılamır, eyni zamanda gənc nəsilin dünyagörüşünün formalaşmasında və inkişafında mühüm rol oynayır. Onun əsərlərində yer alan simvolik mənalar, fəlsəfi dərinlik, həyatın müxtəlif tərəflərini əhatə edən bədii baxışlar gənclərə hadisələrə təkcə səthi deyil, daha dərindən, fərqli və çoxşaxəli perspektivlərdən yanaşmağı öyrədir. Müəllifin qəhrəmanları adətən daxili dilemmlərlə qarşılaşır, mənəvi axtarışlara girirlər və bu prosesdə oxucu da düşünməyə, öz daxili dünyasına nəzər salmağa təşviq olunur. Anarın yaratdığı bədii məkanlarda gənc oxucu həm özünü, həm cəmiyyəti, həm də zaman anlayışını yenidən kəşf edir. O, oxucunu passiv müşahidəçidən fəal düşünənə çevirir – çünki Anarın dili, strukturu və ideya dünyası, ənənəvi qəliblərə sığmır və gənclərin təxəyyülünü, tənqidi təfəkkürünü genişləndirir. Müəllifin mürəkkəb və eyni zamanda cəlbedici bədii dili, həmçinin sarkazm və ironiyadan ustalıqla istifadə etməsi, gənc oxucunu həyatın ikili təbiəti – gözəllik və naqislik, işıq və kölgə ilə tanış edir. Nəticə etibarilə, Anarın romanları sadəcə ədəbi əsər olmaqdan kənara çıxır; onlar gənclər üçün həm mənəvi inkişaf vasitəsi, həm də intellektual zənginlik mənbəyidir. Bu əsərlər sayəsində gənc nəslin daxili aləmi daha dərin, baxış bucaqları isə daha geniş və çoxölçülü olur. Anarın yaradıcılığı, düşünən, sorğulayan və dəyişən bir gənc nəslin formalaşmasına xidmət edir ki, bu da müasir ədəbiyyatın əsas məqsədlərindən biridir.

**Ədəbiyyat siyahısı**

1. Ahmet Tanyıldız. "İnşânın Postmodern Terennümü II: Yedinci Gün'de Osmanlı Türkçesi Kullanımına Dair". Dicle Üniversitesi, Edebiyat Fakültesi, Diyarbakır, Türkiye. 10 s.
2. Emin Erdem Özbek. "İhsan Oktay Anar'ın romanlarında sözlü geleneğin dile yansıması". Balıkesir Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Türk Dili ve Edebiyatı Anabilim Dalı Doktora Öğrencisi-Balıkesir, Türkiye. 20 s.
3. Gündüz Osman. İhsan Oktay Anar'ın Kurgu Dünyası, Vizyon Yayınevi, Ankara, 2009. 254 s.
4. İhsan Oktay Anar. Puslu Kıtalar Atlası. İletişim yayınları. İstanbul 2013, 238 s.
5. Kemal Temizer, Selma Baş. "Yazar-Metin-Okur Ekseninde Postmodern Anlatının Oyunsulaştırılması: Puslu Kıtalar Atlası Örneği". Edebi Eleştiri Dergisi. Cilt V, Sayı I, Yıl 5, Mart 2021. 27 s.
6. Muhammet Hüküm. "İhsan Oktay Anar'ın "Puslu Kıtalar Atlası" romanının metinlerarası ilişkiler açısından değerlendirilmesi". Akademik matbuat. Kasım 2017. 14 s.
7. Nesrin Kale. "Postmodernizm-Hermeneutik ve eğitim". Ankara Universitesi. 1993. 10 s.
8. Osman Gündüz. "Geleneksel anlatma formlarından çağdaş romana aktarımlar ya da İhsan Oktay Anar'ın romanlarında post-modern anlatıcı profilleri". A. Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum. 2016. 9 s.
9. Yusuf Aydoğdu. "Postmodern bir roman çözümlemesi: İhsan Oktay Anar'ın Suskunlar'ı". Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Yıl: 5/ Cilt: 5/ Sayı:9 /Bahar 2015. 24 s.
10. https://teis.yesevi.edu.tr/madde-detay/anar-ihsan-oktay
11. https://www.eskieserler.com/Eski/Eserler/Makale/1732/MakaleDetayYazdir.asp?LID=TR&ID=1732

**Rəyçi: fil.e.d. prof. Mahmud Allahmanlı**